Azerbaijanian Journal of Economics and Social Studies

*Azərbaycanın İqtisadi və Sosial Araşdırmalar Jurnalı*
*www.azjess.com*
Sayı/Number 4, 2015

# AQRAR-SƏNAYE KOMPLEKSİ SAHƏLƏRİNDƏ KOOPERASİYA SİSTEMİ, FUNKSİYALARI VƏ FƏALİYYƏT PRİNSİPLƏRİ

**Əlisa Təvəkkül oğlu Zeynallı[1], i.f.d.,**
*AzETKTİvəTİ-nin Aqrar sahədə kooperasiya və inteqrasiya münasibətlərinin inkişafı şöbəsinin müdiri,*
**T. K. Qorçiyeva,**
*Aparıcı elmi işçi*

## Xülasə

Kooperasiya iqtisadi münasibətlər sistemində istehsal və xidmət subyektlərinin vahid məqsəd uğrunda könüllü birliyidir. Hüquqi və fiziki şəxslərin əməyinin elmi təşkili formasıdır. Onlar xüsusi əhəmiyyətli sahibkarlıq fəaliyyətini həyata keçirirlər. Bir-biri ilə istehsal-texnoloji əlaqələri vertikal (şaquli) və ya horizontal (üfüqi) inteqrasiya üsulunda qurulur. Kontrakt əsasında müəyyənləşdirilən öhdəliklər yüksək səviyyədə məsuliyyət hissləri, nizam-intizama əməl etmək şərtləri müqabilində yerinə yetirilir və səmərəli nəticələrə nail olunur. Kooperativləri sahibkarlığın digər formalarından fərqləndirən əlamətlər: birgə mülkiyyətin olması; işgüzar əməliyyatların təxmini olaraq xərclər səviyyəsində qiymətləndirilməsi, ondan artıq daxilolmaların hamısının (yəni xalis mənfəətin) ədalətli qaydada kooperativ üzvləri arasında bölüşdürülməsi; kapital qoymuş şəxslərin təsirinin "hər bir üzvün bir səsə malik olmaq" hüququ əsasında məhdudlaşdırılması, pay haqqının səviyyəsindən asılı olmayaraq.

**Açar sözlər**: kooperasiya, kooperasiya sistemi, inteqrasiya, istehsal kooperativi, istehlak kooperativi, vertikal (şaquli) kooperasiya**,** horizontal (üfüqi) kooperasiya.

**Problemin qoyuluşu**: Azərbaycanda aqrar islahatlar aparıldıqdan, torpaq və istehsal vasitələri üzərində şəxsi mülkiyyət yaradıldıqdan sonra həddindən artıq çox sayda istehsal subyektləri yaranmış və sahibkarlıq fəaliyyətinin azad bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdirilməsinə üstünlük verilmişdir. Buna baxmayaraq, kənd təsərrüfatı istehsalçıları iqtisadi münasibətlər sisteminin bütün aspektlərini: istehsal, mübadilə (bazar) və istehlak münasibətlərinin bütün məsələlərinin həllində özləri məsuliyyət daşıyır, səy göstərir və bilavasitə məşğul olurlar. İnteqrasiya münasibətləri

[1] E-mail:zeynal1950@mail.ru, Tel: (+99451) 593 30 25

kortəbii xarakter daşıyır. Əlverişli xidmətlərin təşkili qənaətbəxş sayılmır. Nəticədə mövcud ehtiyatlardan: torpaq, əmək, kapitaldan səmərəli istifadə edə bilmir, min bir əziyyətlə hasilə gətirdikləri məhsulları satmaqda çətinliklərlə üzləşirlər, maliyyə imkanları zəifləyir, istehsalın intensiv amillər əsasında davamlı inkişafına nail ola bilmirlər və s. Odur ki, bazar iqtisadiyyatı şəraitinə uyğun kooperasiya və inteqrasiya əlaqələrinin yaradılması olduqca əhəmiyyətli hesab edilir.

**Problemin öyrənilmə səviyyəsi.** Milli iqtisadçı-alimlərimiz tədqiqatlarında kooperasiya barədə fikirlərini bildirsələr də, pərakəndəlik hökm sürür, müəyyən bir məqsəd baxımından və kompleks məsələlərin həllinə sistemli yanaşmalar mövcud olmamışdır. Problemin kompleks həlli AzEKTİvəTİ-nin 2012-2014-cü illərin tədqiqatlarında mümkün olmuşdur. Bu tədqiqat müəllifin rəhbərliyi altında həyata keçirilmişdir. Tədqiqat üzrə hazırlanmış yekun hesabatdan istifadə etmək şərti ilə problemin bir məsələsi: kooperasiya sistemi, funksiyaları və fəaliyyət prinsipləri geniş oxucu kütləsinin müzakirəsinə təqdim edilir.

**Məqalənin yeniliyi**: Məqalədə kooperasiyanın mahiyyəti və əhəmiyyəti izah edilir, onunla əlaqəli məsələlərin həllinə XVIII əsrdən Avropa məkanında formalaşan kooperativləşdirmə təşəbbüsləri və XX əsrdə ASK-si formasında həyata vəsiqə almış idarəetmə sisteminin təcrübəsini sintez etmək yolu ilə ölkədə kooperasiya sisteminin formalaşdırılması üçün konkret təkliflər irəli sürülür, ictimai əmək bölgüsü və inteqrasiya münasibətləri əsasında bu sistemin subyektlərinin funksiyaları və fəaliyyət prinsipləri müəyyənləşdirilir. Məsələlərin həllinə yanaşmaların həm nəzəri-metodoloji və həm də praktik (təcrübi) əhəmiyyəti vardır.

## 1. Qloballaşma və bazar iqtisadiyyatı şəraitində kooperasiyanın mahiyyəti və əhəmiyyəti

Kooperativ sərəncamında əsas istehsal vasitələri: torpaq, əmək və kapitalı olub, onlardan səmərəli istifadə olunmasını təmin etmək məqsədi ilə, könüllü birləşərək, müəyyən növ sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki və hüquqi şəxslərin birliyindən ibarət olan iqtisadi (təsərrüfat) subyektdir, müəssisə növüdür. Xüsusi sahibkarlıq formasıdır. Kooperativ əməyin elmi təşkili formalarından biridir. Əlverişli idarəetmə metodudur. Qarşılıqlı əlaqəsi olan istehsal sahələri və onların mərhələləri arasında mütəşəkkillik yaratmaq, səmərəli inteqrasiya vasitəsidir.

Əsas məqsədi kənd təsərrüfatı məhsullarının istehsalından ibarət olan kooperativ kənd təsərrüfatı istehsal kooperativi hesab edilir. Əsasən orta və kiçik təsərrüfat subyektlərini özündə birləşdirmək yolu ilə iri təsərrüfat subyektləri yaratmaq vasitəsidir. Kənd təsərrüfatına yararlı torpaqlardan səmərəli istifadə etmək, əmək məhsuldarlığını artırmaq, iqtisadi səmərəliliyi yüksəltmək, rəqabətə davamlılığı təmin etmək funksiyalarına malikdir. Horizontal (üfüqi) əlaqələr üzrə yaradılır.

Aqrar-sənaye kompleksi sahələri üzrə istehlak kooperativi kənd təsərrüfatı istehsal kooperativlərinə birbaşa texnoloji və müxtəlif xarakterli yardımçı xidmətlərin göstərilməsi funksiyalarını yerinə yetirən hüquqi və fiziki şəxslərin könüllü birliyidir. Kənd təsərrüfatı istehsal kooperativlərinə tədarük və satış, təchizat, anbar təsərrüfatı, nəqliyyat-daşıma, emal, pərakəndə ticarət, müxtəlif növ texnoloji və sair əlavə xidmətlərin göstərilməsi funksiyalarını yerinə yetirir. Vertikal (şaquli) əlaqələr üzrə yaradılır.

Hər iki növ kooperativin səmərəlilik meyarları: iqtisadi və sosial səmərəlilik. İqtisasi səmərəlilik təsərrüfat-iqtisadi fəaliyyətin nəticəsinə görə mənfəət əldə etməklə səciyyələndirilir. Ondan asılı olaraq, azad seçim və fəaliyyət, qiymət və tariflərin müəyyənləşdirilməsində tərəflərin razılaşması, rəqabət, inhisarçılıq və s. nəticəsində rəqabətə davamlılıq təmin edilir, təkrar və geniş təkrar istehsalı mümkün olur.

Kooperativlərin fəaliyyətinin sosial səmərəliliyi əhalinin məşğulluğunun yüksəldilməsi və işsizliyin aradan qaldırılması, üzvlərinin yoxsulluğunun azaldılması, intellektual və mədəni həyat səviyyəsinin yüksəldilməsi, bacarığının təkmilləşdirilməsi, yaradıcılıq qabiliyyətinin artırılması, cəmiyyətdə stabilliyin yaradılması və firavan həyat tərzinin təmin edilməsi, dövlətin iqtisadi qüdrətinin artırılması, milli iqtisadi sistemin davamlı və dinamik inkişafı, xarici iqtisadi əlaqələrin səmərəli təşkili və genişləndirilməsi və s. nəticələr ilə səciyyələndirilir.

Kooperativ fiziki və hüquqi şəxslərin könüllü birliyi və vahid bir məqsəd uğrunda əl-ələ verib, köməkləşib fəaliyyət göstərən kollektiv təsərrüfatçılıq (sahibkarlıq) formasıdır. Onun üzvləri iki qrupa bölünür: əsas üzvlər və assosiasiya olunmuş (birləşmiş, ortaq) üzvlər.

Kooperativin əsas üzvləri onun nizamnaməsini qəbul edən, pay fonduna əmlak: torpaq sahələri, məhsuldar mal-qara, istehsal təyinatlı bina, qurğu, sair tikililər və pul formasında məcburı və könüllü pay ödəyən, məhsul istehsalı və xidmətlər göstərilməsində fərdi qaydada və yaxud birlikdə yaxından iştirak edən, onun idarə etmə və nəzarətedici oraqanlarında ictimai əsaslarla iştirak edən, qərarların qəbulunda səs vermək, mənfəətdən pay almaq hüquqları olan, məsuliyyətin daşınmasına şərik olan hüquqi və fiziki şəxslərdir.

Assosiasiya olunmuş (birləşmiş, ortaq) üzv kooperativin nizamnaməsini qəbul edən, ona uyğun pay üzvlük haqqı ödəyən və bu paya görə mənfəətdən pay alan, kooperativin fəaliyyətinin təşkili, həyata keçirilməsində və onun nəzrətedici orqanlarında iştirak etməyən, habelə qərarların qəbulu zamanı səsvermə hüququ olmayan fiziki və ya hüquqi şəxslərdən ibarətdir.

## 2. Kooperativlərin formalaşdırılması və fəaliyyət göstərməsinin əsas prinsipləri

Kənd təsərrüfatı istehsalçılarının müasir qloballaşan dünyada və bazar iqtisadiyyatı şəraitində səmərəli fəaliyyət göstərməsi onların təşkilati-idarəetmə metodları və istehsal-sahəvi strukturunda islahatlar aparılması, fəaliyyət istiqamətinin azad seçimi, texnoloji əlaqələrin səmərəlili təşkili və s. davamlı, dinamik inkişafının fəqərə sütunu hesab edilir. Onunla yanaşı, kooperativləşdirmənin 12 təməl prinsiplərini müəyyənləşdirmək və onlara ciddi əməl etmək mühüm əhəmiyyət kəsb edir (4, 77-80). Bu təməl prinsiplərinə aşağıdakılar daxil edilir:

1. ***könüllülük***. Könüllülük əsasında kooperativləşmə onun obyektiv zərurətindən irəli gəlir. Bu prinsipə uyğun olaraq, iqtisadi subyektlərin azad seçim etməsi, bu və ya digər kooperativə daxil olması, kooperativə üzvlük formasını müəyyənləşdirmək: həqiqi üzv və ya assosiasiya olunmuş (birləşmiş, ortaq) üzv olması, bir forma üzvlükdən digər forma üzvlüyə keçməsi, habelə üzvlükdən çıxmasında məcburetmənin bütün formaları yolverilməz sayılır;
2. ***azad seçim***. Fəaliyyət istiqaməti və kooperativləşmə formasının seçilməsinə əsaslandırılmış yanaşmanı tələb edir. Hər bir hüquqi və fiziki şəxs, hər bir ölkə

vətəndaşları, vətəndaşlığı olmayanlar və xarici ölkə vətəndaşları özləri və onların yaratdığı hüquqi şəxslərin, mülkiyyət formalarına uyğun, kooperativləşməyə dair qərarları, heç bir təsirə məruz qalmadan, azad seçiminə əsasən qəbul edilir;

3. ***səmərəlilik***. Kooperativ təşkilatların və onların hər bir üzvünün iqtisadi mənafelərinin yüksək səviyyədə təmin edilməsi ilə xarakterizə edilir. Odur ki, fəaliyyət nəticələrinin mənfəət səviyyəsinin yüksəldilməsi diqqət mərkəzində saxlanılır və əsas motiv hesab edilir;
4. ***iqtisadi müstəqillik***. Azad seçim nəticəsində müəyyən edilmiş fəaliyyət üzrə yaranan öhdəliklərin yerinə yetirilməsinə kooperativin özünün mülkiyyəti, əmlakı və maliyyə imkanları hesabına məsuliyyət daşıması bu prinsipin meyarı sayılır. Təsərrüfat müstəqilliyinin saxlanması kooperativləşdirilmiş istehsal sahələrinin idarə edilməsinin demokratik prinsiplərə əsaslandığını əyani təzahür etdirir;
5. ***qanunauyğunluq***. Kooperativ təşkilatların nizamnaməsinə uyğun və Azərbaycan Respublikasının qanunları ilə qadağan edilməyən iqtisadi fəaliyyət kooperativlərin funksiya və vəzifələrini müəyyənləşdirir. Qanunvericiliyə uyğun olaraq, onun öhdəlikləri yaradılır və yerinə yetirilir. Müqaviləyə (kontrakta) əsaslanmaq kooperativlər sisteminin fəaliyyətinin özəyi sayılır;
6. ***özxərcini ödəmək***. Kooperativ təşkilatların əsasnaməyə uyğun fəaliyyəti əsasən özünümaliyyələşdirmə hesabına həyata keçirilir. Məhsul istehsalı və satışı, müxtəlif xarakterli xidmətlərin göstərilməsindən əldə edilən gəlir hesabına maliyyə və vergi öhdəlikləri yerinə yetirilir, üzvlük haqı ödənilir, istehsal xərcləri çıxılır, muzdlu işçilərin əmək haqqı ödənilir və yerdə qalan hissə kooperativ təşkilatların mənfəəti sayılır. Bu mənfəətdən kooperativin fondlarına ayırmalar həyata keçirilir, koopertiv üzvləri və assosiasiya olunmuş (birləşmiş, ortaq) üzvlərə pay ödənişləri həyata keçirilir, nizamnamə ilə müəyyən edilmiş qaydalara əsaslanılır;
7. ***özünənəzarət***. Bu prinsip kooperativ təşkilatlarının təşkilinin əsaslarından hesab edilir. Kooperativ fəaliyyətinin səmərəliliyinin təmin edilməsi məqsədilə, nizamnaməyə uyğun olaraq, müşahidə şurasını yaradır, təftiş komissiyası (müfəttiş) seçilir və onların funksiyaları müəyyənləşdirilir;
8. ***özünüidarəetmə***. Kooperativ təşkilatlarının nizamnaməsində nəzərdə tutulan fəaliyyəti həyata keçirməyi, öhdəliklərin yerinə yeririlməsini təşkil etmək və idarəetmə funksiyalarını yerinə yetirmək məqsədi ilə, hər bir kooperativ təşkilatı, müstəqil olaraq, nizamnamədə nəzərdə tutulmuş qaydalara uyğun olaraq, özünün idarə heyətini və rəhbərini seçir, onların səlahiyyətləri, hüquq və vəzifələri müəyyənləşdirilir, üzvlərin ümumi yığıncağı keçirilir. Üzvlərinin ümumi iclası (yığıncağı) kooperativin əsas idarəetmə orqanı sayılır;
9. ***rəqabətədavamlılığın təmin edilməsi***. Bazar iqtisadiyyatı qanunlarından irəli gələn zəruri əlamətdir. Məhsul və xidmətlərin keyfiyyətini yaxşılaşdırmaq, müasir texnika və texnologiyalardan istifadəyə diqqət yönəltmək, istehsal xərclərini azaltmaq, istehlak bazarına istehlakçıların tələbatına uyğun gələn kəmiyyət və keyfiyyət əlamətləri üzrə, ucuz qiymətlərlə (tariflərlə) məhsul və

xidmətlər çıxarmaq (təklif etmək) şərti ilə rəqiblərinə qalib gəlmək, istehlak bazarında öz yerini mökəmləndirməklə səciyyələndirilir. Əsas iqtisadi meyarı əmtəllik məhsulun səviyyəsi ilə xarakterizə edilir. Bu göstərici yüksələn xətt boyu artırsa və 100%-ə doğru meyl edirsə, deməli, rəqabətə davamlılıq möhkəmlənir. Əks halda rəqabətə davamlılığın zəifləməsi hesab edilir;

10. ***ixtisaslaşma***. Mühüm əhəmiyyətli prinsiplərdən biridir. Bu prinsipə uyğun olaraq, kooperativlərin növləri və fəaliyyət istiqamətləri (təyinatı) müəyyənləşdirilir. İstehsal və istehlak kooperativləri ən ümumi ixtisaslaşma növləri hesab edilir. İxtisaslaşma əlaməti həm də kooperativlərin daxilində fəaliyyət göstərir. İstehsal kooperativləri məhsul növləri üzrə: dənlilər, dənli paxlalılar, tərəvəz və meyvə, bostan məhsulları, yemçilik, heyvandarlıq sahələri və məhsulları üzrə, habelə onların hər birinin alt qrup və sinifləri üzrə ixtisaslaşma həyata keçirilir. İki və daha çox məhsul növlərinin istehsalı üzrə ixtisaslaşma halları mümkün hesab edilir. Bu halda ixtisaslaşmış kooperativlər yaradılmış olur. Sonuncu halda əsas və əlavə istehsal sahələrinin müəyyən edilməsinə ehtiyac yaranır. İstehlak kooperativlərinin daxilində xidmət növlərinə görə fəaliyyət sahələrinin ixtisaslaşdırılması həyata keçirilir: tədarük, emal, saxlama, daşıma, topdan və pərakəndə satış, təchizat və s. xidmətlər üzrə ixtisaslaşmaya yol verilir. Bu zaman ixtisaslaşma fəaliyyət dairələrinin, vəzifələrin sərhədlərinin dəqiq müəyyənləşdirilməsi üçün əsas məqsəd hesab edilir. Məhsuldarlığın yüksəldilməsi, keyfiyyətin artırılması, istehsal xərclərinin azaldılması kimi meyllər ixtisaslaşmanın səmərəliliyini göstərir;
11. ***təmərküzləşmə.*** İxtisaslaşmanın əksi hesab edilsə də, burada əlaqələrin mütəşəkkilliyinin təmin edilməsindən söhbət gedir. Qarşılıqlı əlaqələrin səmərəliliyin yaradılması, inteqrasiya olunma məqsədlərini özündə ifadə edir. İdarəetmənin demokratik mərkəziyyət prinsipinə əsaslanaraq, istehsal kooperativlərinin daxilindəki qarşılıqlı əlaqələrin nizam intizamını, ahəngdarlığını təmin edir. İstehlak kooperativlərinin vahid rəhbərlik metodu üztə təşkili və idarə edilməsi, nizam-intizam qaydalarının fəaliyyəti, istehsal və istehlak kooperativləri arasındakı qarşılıqlı əlaqələrin səmərəliliyinin təmin edilməsi, tarazlı inkişafa nali olmaq və ahəngdarlığın yaradılması üçün bir vasitəyə çevrilir;
12. ***inteqrasiya olunma.*** Hər cür qarşılıqlı əlaqələr səmərəli sayılmır. Yalnız səmərəli inteqrasiyanın yaradılmasını təmin edən əlaqələr əhəmiyyətli sayılır. İnteqrasiya olunma prinsipi ahəngdarlıq (tarazlı inkişaf) yaratmaq məqsədinin açarı, təkanvericisi və sükançısı sayılır.

Alim və mütəxəssislər ***təsərrüfatdaxili kooperasiyanı*** ayrıca nəzərdən keçirirlər. Təsərrüfatdaxili kooperasiya, təşkilati formasından asılı olmayaraq, bütün kənd təsərrüfatı müəssisələrində aparıla bilər. Onun mahiyyəti belə müəyyənləşdirilir: təşkilatın fəaliyyətinin səmərəliliyini yüksəltmək məqsədilə, əmək bölgüsü və ixtisaslaşma aparmaq yolu ilə, müxtəlif bölmələr arasında təsərrüfatdaxili əlaqələri qurmaq mümkün olur. Əldə edilən gəlir isə istehsal bölmələrinin: podrat-təmir və tikinti, icarəyə götürülmüş, təsərrüfat hesablı və s. bölmələrin işçiləri arasında, əmək sərfinə müvafiq qaydada, bölüşdürülür. Belə bölmələr müqavilə əsasında (məsələn,

heyvandarlıq briqadaları) və yaxud müvəqqəti olaraq mövsüm dövründə (məsələn, yığım-daşıma kompleksi) fəaliyyət göstərə bilər.

Müasir mərhələdə bəzi ölkələrdə, məsələn, Rusiya Federasiyasında kənd təsərrüfatı müəssisələri səhmdarlar cəmiyyəti formasında fəaliyyət göstərdiyinə görə təsərrüfatdaxili kooperativləşdirmə daha çox əhəmiyyət kəsb edir və geniş yer tutur. Onları inkişaf etdirmək imkanları genişlənir (13).

**3. Təsərrüfatlararası kooperativləşdirmə və onun inkişaf etdirilmə istiqamətləri**

İstehsal kooperasiyasının inkişaf etdirilməsi sahədaxili və təsərrüfatlararası əlaqələri genişləndirməyə və səmərəliliyini təmin etməyə şərait yaradan ixtisaslaşmanın dərinləşdirilməsi (genişləndirilməsi) ilə bilavasitə əlaqədə olur.

Təsərrüfatlararası kooperativləşdirmə ictimai əmək bölgüsü və kənd təsərrüfatı istehsalının kooperativləşdirilməsinin ən yüksək forması hesab edilir. Təsərrüfatlararası kooperativləşdirmə iqtisadi nöqteyi-nəzərdən azad hesab edilən hüquqi və fiziki şəxslərin əməkdaşlıq forması hesab edilir. Onların fəaliyyətinin koordinasiya olunması (əlaqələndirilməsi), öz fəaliyyətinin məhsul və xidmətlərinin mübadilə olunması (istehlakı, istifadə edilməsi) və yaxud istehsalın təşkilini birlikdə həyata keçirmək, yüksək məhsuldarlıq və əmək məhsuldarlığına nail olmaq məqsədi ilə istehsal prosesini ixtisaslaşdırmaq, optimal təmərküzləşdirmə həyata keçirmək və elmi-texniki tərəqqinin nailiyyətlərini müvəffəqiyyətlə yerinə yetirmək müqabilində səmərəli nəticələr əldə edilir.

Təsərrüfatlararası kooperasiyanın inkişaf etdirilməsi, ilk növbədə, istehsalın təşkilinə yeni yanaşmalar tələb edən iqtisadi amillərin fəaliyyətini təmin etmək, istehsal prosesində dərin ixtisaslaşma aparmaq və onu genişləndirmək, mövcud olan istehsal-texniki potensial və əmək ehtiyatlarından səmərəli istifadə olunmasına nail olmaq üçün bütün səy və bacarığın birləşdirilməsi ilə şərtləndirilir, onlardan bilavasitə asılı olur. Bu proses təsərrüfatlararası əlaqələrin yeni formalarının yaradılması və inkişaf etdirilməsi, istehsal prosesinin tərkibi və xarakterində keyfiyyət dəyişiklikləri ilə müşaiyət edilir, onun təşkilinin yeni forması hesab edilir. İstehsalın təşkilinin bütün formaları kimi, təsərrüfatlararası kooperativləşdirmə məhsuldar qüvvələrin inkişaf səviyyəsindən asılı olur və onunla şərtləndirilir. Məhz məhsuldar qüvvələrin artımı və keyfiyyətcə inkişaf etdirilməsi XX əsrin 70-ci illərində kənd təsərrüfatında istehsalın ixtisaslaşması və əmək bölgüsünün dərinləşdirilməsinin obyektiv əsası (səbəbi) olmuşdur. Bütün bunların təcəssümü iri heyvandarlıq komplekslərinin tikilməsi və fəaliyyət göstərməsi, quşçuluğun sənaye əsaslarında inkişaf etdirilməsi, ixtisaslaşdırılmış toxumçuluq təsərrüfatlarının yaradılması, yem istehsalı, heyvandarlıqda damazlıq işlərinin gücləndirilməsi və s. ilə səciyyələndirilir. Belə dərin ixtisaslaşdırılmış təsərrüfatların yaradılması, keyfiyyətcə yeni texnoloji əsaslar üzrə möhkəmlənən istehsalın yüksək səviyyədə təmərküzləşməsi şərti ilə, istehsal güclərinin tikintisi üçün vəsait və səylərin (bacarığın) birləşdirilməsi zərurətini yaratmışdır. Onların səmərəli fəaliyyət göstərməsi əsas ehtiyatlar (yem, cavan mal-qara və s.) ilə bilavasitə birgə təminat nəticəsində mümkün olmuşdur.

Məsələn, ildə 5 min baş cavan erkək danaların yemləndirilməsi və böyüdülməsi nəzərdə tutulan heyvandarlıq kompleksini inkişaf etdirmək üçün 15 min baş və daha çox südlük naxırı olan südçülük təsərrüfatı yaratmaq zərurəti yaranmışdır. Bu da bir çox

əlaqəli sahələrin kooperasiya formasında birləşdirilməsi nəticəsində səmərəli fəaliyyət göstərə bilmişdir. Heyvandarlıq məhsullarının istehsalı üzrə kooperasiya olunmuş təsərrüfatlara qarışıq yemlərin istehsalı üzrə emal müəssisələrini də birləşdirmək məqsədəuyğun sayılmışdır. İri quşçuluq fabriklərində yumurta istehsalı texnologiyası, digər fabriklərdə texnoloji ixtisaslaşma apararaq, damazlıq yumurta istehsalı, onların inkubasiyası, əmtəəlik təsərrüfatlarda (fabriklərdə) ana toyuq dəstəsini bərpa etmək üçün cavan cücələrin yetişdirilməsi kimi ixtisaslaşma işləri ilə bilavasitə əlaqəli olmuşdur. Bütün bunlar fəaliyyət növlərinin, istehsal əlaqələrinin, kooperativləşdirmə işlərinin inkişaf etdirilməsi zərurətini yaratmışdır.

Beləliklə, ixtisaslaşma və təmərküzləşmə təsərrüfatlararası kooperativləşdirmənin əsas şərtlərindən hesab edilir. Onlar, kooperativləşdirməyə nisbətən, birinci (ilkin) hesab edilirlər. Öz növbəsində, təsərrüfatlararası kooperativləşdirmə passiv yer tutmur, əksinə, ixtisaslaşmanın dərinləşdirilməsinə və daha çox sayda istehsal subyektlərini özünə cəlb emək yolu ilə təmərküzləşmənin yüksəldilməsinə bilavasitə təsir göstərir (əlverişli şərait yaradır). Çoxlu sayda iqtisadi subyektlərin qarşılıqlı əlaqələri və əməkdaşlıq formalarını genişləndirir, kapitalın təmərküzləşməsi və birgə istehsal üsulunu yaratmaq formasında.

Bütün bunların nəticəsində təsərrüfatlararası kooperasiya yaradılır: əvvəla, istehsalın ayrı-ayrı texnoloji sikl və mərhələlərinin yerinə yetirilməsi ilə əlaqəli istehsal subyektləri arasında, sonra isə kooperativləşdirilmiş birgə iri istehsal texnologiyasını yaratmaq və inkişaf etdirmək məqsədi ilə, bir neçə istehsal vahidləri (subyektləri) arasında kooperativləşdirmə aparılır, səmərəli qarşılıqlı əlaqələr qurulur və inkişaf etdirilir.

## 4. Təsərrüfatlararası kooperasiyanın istiqamətləri (təyinatı) və təşkilati formaları

Təsərrüfatlararası kooperasiyanın istiqamət (təyinat) və təşkili formalarının inkişaf etdirilməsi bu və ya digər sahədə əməyin ixtisaslaşma səviyyəsi və ayrı-ayrı istehsal mərhələlərinin müstəqil iqtisadi subyekt formasında təmərküzləşməsindən asılı olur. Onlar arasındakı istehsal-iqtisadi əlaqələrin xarakteri və əlaqə yaratmaq xüsusiyyətlərini müəyyənləşdirməyə əsas verir.

Məsələn, taxılçılıq təsərrüfatı kifayət qədər sənayeləşdirilmiş texnologiyaya malikdir. Müstəqil bir təsərrüfat formasında uğurla inkişaf edə bilər. Təsərrüfatlararası inteqrasiyaya ehtiyac duyulmur. Eyni zamanda, burada ixtisaslaşdırılmış toxumçuluq bölməsini yaratmaq mümkündür və məqsədəuyğun sayılır, ayrı-ayrı taxıl növləri üzrə toxum istehsalının dərin ixtisaslaşdırılmasını aparmaq şərti ilə. Bu halda kooperativləşdirmə apararkən, ona seleksiya mərkəzlərini, eksperimental bazalarını, habelə ixtisaslaşdırılmış toxum təmizləyici, quruducu və saxlama bazalarını, onların təsərrüfatlara satış məntəqələri ilə bir yerdə birləşdirmək zərurəti yaranır. Bu proses mərhələlər üzrə həyata keçirilə bilər, təsərrüfatlararası əlaqələri genişləndirməklə yanaşı olaraq.

Heyvandarlıqda aydın şəkildə üç müstəqil sahə yaratmaq mümkündür: süd istehsalı və buzovların reproduksiyası (bəslənməsi); dişi cavan heyvanları yetişdirmək və mayalandırmaq yolu ilə ana südünün müntəzəm surətdə artırılması və məhsuldar cinslərlə təmin edilməsi; erkək cavanları, habelə yaşlı heyvanları yemləmək və kökəltmək yolu ilə ətlik məqsədilə bəslənməsi. Mal əti istehsalının texnoloji

mərhələləri, öz növbəsində, buzovların yetişdirmə və bəslənmə mərhələlərinə bölünə bilər: 6 aya kimi yetişdirmə (becərmə, böyütmə, bəsləmə) mərhələsi; 1 yaşa qədər böyütmək, bəsləmək, becərmək mərhələsi; kökəltmə mərhələsi (12-18 ay müddətində). Göstərilən istehsal proseslərinin hər biri ayrı-ayrı ixtisaslaşdırılmış təsərrüfatlarda həyata keçirilə bilər. Belə bir şəraitdə təsərrüfatlararası kooperasiya zamanı onların hamısını, habelə yem tədarükü və təchizatı, suyun verilməsi, tövlənin təmizlənməsi, zootexniki və zoobaytar xidmətlərin göstərilməsi üzrə qarşılıqlı əlaqələrin səmərəli qurulmasına diqqət yönəldilir.

Sahə və fəaliyyət növünün fərdi xüsusiyyətlərindən asılı olaraq, təsərrüfatlararası kooperasiyanın aşağıdakı istiqamətləri yaradıla və inkişaf etdirilə bilər:

- *alqı-satqı prinsiplərinə əsaslanan uzun müddətli dayanıqlı (sabit, möhkəm) istehsal-iqtisadi əlaqələr əsasında.* Bu halda bir iqtisadi subyektin hazır məhsulu digər iqtisadi subyekt üçün istehsal vasitəsi (xammal və materialı) kimi çıxış edir (məsələn, süd istehsalı üzrə ixtisaslaşmış təsərrüfat cavan erkəkləri və məhsuldarlığı aşağı düşən ana malı yemləndirmək və kökəltmək üçün ət istehsalı üzrə ixtisaslaşdırılmış təsərrüfatlara, dişi cavan malı isə düyəyetişdirmə üzrə ixtisaslaşdırılmış təsərrüfatlara satır; toxumçuluq üzrə ixtisaslaşdırılmış təsərrüfatlar əmtəəlik taxılçılıq təsərrüfatlarını toxumla təmin edir və s.);
- *könüllü birləşmə prinsipi üzrə, maliyyə, material və əmək ehtiyatlarını birləşdirmək şərti ilə, kooperativləşmə əsasında birgə istehsal, xidmət və digər istehsal və qeyri-istehsal proseslərinin fəaliyyətini qarşılıqlı əlaqədə birgə həyata keçirmək.* Bu halda təsərrüfatlararası müəssisə və təşkilatlar (kooperasiya təşkilatları) yaradılır;
- əmək bölgüsü nəticəsində bir və yaxud bir neçə növ məhsul istehsalı üzrə ixtisaslaşmış və səmərəli nəticələr əldə etmək məqsədi ilə bəzi təsərrüfatların könüllü olarq, müqavilə (kontrakt) əsasında əməkdaşlıq etmək yolu ilə, kooperativləşərək birgə fəaliyyət göstərməsi. Bu istiqamətdə müxtəlif istehsalat birlikləri yaradılır.

## 5. Azərbaycanda kooperativləşdirmə hərəkatının məqsəd və vəzifələri, xarakterik xüsusiyyətləri

İnkişaf etmiş, inkişaf edən, sosial və ya kapital yönümlü iqtisadiyyata malik olan ölkələrin hamısında kənd təsərrüfatının kooperativləşdirilməsinə xüsusi əhəmiyyət verilsə də, ayrı-ayrı ölkələrdə bu məqsədə nail olmaq üçün fərqli yanaşma, üsul və metodlardan istifadə edilmişdir. Deməli, Azərbaycanın kənd təsərrüfatında kooperativləşdirmənin özünəməxsus xüsusiyyətləri olmalıdır. Kooperativləşdirmə formaları iqtisadi münasibətlər sisteminin faktiki inkişaf səviyyəsi və təsərrüfatçılıq mexanizmindən asılı olaraq müəyyənləşdirilir.

Kooperativləşmənin məqsədi fərdi və kollektiv mənafelərin əlaqələndirilməsi, məsuliyyət, xərc və gəlirləri öz üzvləri aralarında bölüşdürmək, özünütəşkilatlandırma, özünüidarəetmə və özünənəzarət əlamətlər əsasında kooperativ təşkilatın üzvlərinin iqtisadi, sosial və digər tələbatının ödənilməsindən ibarətdir.

Hesab edirik ki, Azərbaycanda kənd təsərrüfatı kooperasiyasının aşağıdakı vəzifələrini nəzərə almaq əhəmiyyətli sayıla bilər:

- kooperativ üzvlərinin iqtisadi fəaliyyətinin səmərəliliyinin təmin olunması, mövcud ehtiyatlarından məqsədyönlü və məhsuldar istifadəyə nail olunması, onların həyat tərzinin yüksəldilməsi, əmlak mənafeyi və sosial hüquqlarının müdafiə olunması;
- əhali və təsərrüfat subyektlərinin iqtisadi və sosial özünümüdafiə (qarşılıqlı yardım) sisteminin yaradılması;
- məhsul (əmtəə) istehsalı, iş və xidmətlərin yerinə yetirilməsinə əlavə əmək ehtiyatlarının cəlb edilməsi, əhalinin əmək və sosial fəallığının (aktivliyinin) yüksəldilməsi;
- kooperativ üzvlərinin maddi rifah halının yüksəldilməsi, məhsul və xidmətlərə olan tələbatın ödənilməsi məqsədi ilə onların təsərrüfat və digər fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktur (xidmət sahələrinin) yaradılması və inkişaf etdirilməsi;
- davamlı inkişaf və cəmiyyətin inkişafının demokratik prinsiplərinin təşəkkülünə yardım edilməsi;
- iri təsərrüfat formalarının yaradılması;
- aqrar sahə üzrə sənayeləşdirmədəki geriliklərin aradan qaldırılması;
- ölkə iqtisadiyyatının sənayeləşdirmədən sonrakı inkişaf mərhələsinə keçidi və informasiya cəmiyyətinin formalaşması üçün əlverişli şəraitin yaradılması;
- kənd yerlərinin sosial-iqtisadi inkişafının müasir dövrün tələblərinə uyğunlaşdırılması, təbii ehtiyatlardan səmərəli istifadənin təmin edilməsi və “Azərbaycan 2020: gələcəyə baxiş” inkişaf konsepsiyası ilə müəyyən edilmiş digər vəzifələrin yerinə yetirilməsinə səy göstərmək;
- fəaliyyət proseslərində mövcud olan və səmərəli nəticələr əldə edilməsinə maneçilik törədən əsaslı (köklü) problemlərin aradan qaldırılması və s.

Kooperativin yaradılmasına dair qanunvericiliklə və dünya təcrübəsində nəzərdə tutulur ki, kooperativ üzvlərinin sayı azı iki, üç və ya beş fiziki və hüquqi şəxslərdən ibarət olmalıdır (11, 107-133). Belə yanaşma bir tərəfdən yaxşıdır ki, üzvlərinin sayının maksimum həddi məhdudlaşdırılmır. Onun minimum həddinə gəldikdə isə qəribə məntiq yaranır. Belə kiçik həcmli kooperativlərdə onun idarəetmə orqanlarının: idarə heyəti, müşahidə şurası, maliyyə-təftiş komissiyasının yaradılması, kooperativin rəhbərinin seçilməsi, ali idarəetmə orqanı sayılan üzvlərin ümumi iclasının keçirilməsi formal xarakter daşıya bilər və gözlənilən səmərəni əldə etmək mümkün olmaz. Xüsusən də Azərbaycanda belə yanaşma səmərəsiz ola bilər.

Tədqiqatlar göstərir ki, hal-hazırda dünyada daha çox yayılan kənd təsərrüfatı istehsal kooperativi növləri aşağıdakılardan ibarətdir: emal, satış, təchizat və xidmət kooperativləri (11, 103-160).

Kənd təsərrüfatı istehlak kooperativləri dar (sırf) ixtisaslaşmış (öz üzvlərinə bir növ xidmət göstərən) və çoxfunksiyalı (bir çox xidmət növlərinin göstərilməsi ilə məşğul olurlar) növlərinə bölünürlər, bir və ya bir neçə kənd təsərrüfatı məhsullarının istehsalı və onların emalını həyata keçirirlər.

Ayrı-ayrı ölkələrdə məsələn, ABŞ, Fransa, İrlandiya, Hollandiya (fermerlərinin hər biri təkcə bir kooperativin deyil, 3-4 dar ixtisaslaşmış kooperativin üzvü hesab edilir: kredit, təchizat, bu və ya sair növ məhsulun emalı üzrə kooperativlərə üzv olurlar) və s. kooperativlər, əsasən, xidmət sahələri üzrə yaradılır. Eyni bir kənd

təsərrüfatı istehsalçısı bir neçə kooperativə üzv olur (13). Bunun üçün ümumi fond yaradırlar, pay haqqı ödəyirlər, idarəetmə işlərində iştirak edirlər və s. Belə yanaşmanı da Azərbaycan üçün əlverişli hesab etmirik.

Bəzi mütəxəssislər düşünürlər ki, Azərbaycanda ixtisaslaşdırılmış kooperativlərin yaradılması məqsədəuyğundur. Buradan belə nəticə çıxır ki, onlar ayrı-ayrı yaşayış məntəqələrində bir neçə müxtəlif təyinatlı, məsələn, taxılçılıq, tərəvəzçilik, meyvəçilik, maldarlıq, qoyunçuluq, quşçuluq və s. kooperativlərinin yaradılmasını məqbul hesab edirlər. Belə iddiaları inkar edirik. Çünki, əvvəla, belə yanaşma yalnız hər bir kənd təsərrüfatı istehsalçısının bir növ məhsul istehsalı üzrə ixtisaslaşdığı halda doğru sayıla bilər. İkincisi, Azərbaycanda tarixən, həmişə iki və daha çox məhsul istehsalı təcrübəsi mövcud olmuş, adət halını almışdır və belə vərdişi tərgitmək faydasız ola bilər, hətta qıtlıq yaradılması ilə nəticələnər. Üçüncüsü, hazırkı mövcud vəziyyətdə hər bir istehsalçı bir neçə kooperativə üzv olmaq məcburiyyətində olacaqdır və bu da, yuxarıda izah edildiyi kimi, Azərbaycanda səmərəli nəticələr verməz.

Ümumiyyətlə, kənd təsərrüfatı iqtisadiyyat sisteminin elə bir mürəkkəb sahəsidir ki, burada əmək ehtiyatlarından səmərəli istifadə etmək üçün hər bir istehsalçının iki və daha çox sahə üzrə məşğulluğu məqsədəuyğun sayılır. Mövsümülük xüsusiyyətinə görə, məsələn, taxılçılıq və tərəvəzçilik, yaxud heyvandarlıq yanaşı məşğuliyyət sahələri hesab edilir, əmək ehtiyatlarından səmərəli istifadəni təmin etmək məqsədi ilə.

Göstərilənləri nəzərə alaraq, fikrimizcə, Azərbaycanda kooperativləşmənin əməyin inteqrasiyası əsasında həyata keçirilməsi səmərəli nəticələr üçün əlverişli şərait yarada bilər. Odur ki, iki qrup kooperativlərin yaradılmasına üstünlük veririk:

- *kənd təsərrüfatı istehsal kooperativləri.* Hər bir yaşayış məntəqəsi üzrə adətən belə kooperativin yaradılmasını tövsiyə edirik. İri kənd yaşayış məntəqələrində, təsərrüfatların sayından asılı olaraq, iki və daha çox istehsal kooperativi yaradıla bilər;
- *aqrar-sənaye kompleksi sahələri üzrə istehlak kooperativləri.* Belə kooperativlər əsasən kənd təsərrüfatı istehsal kooperativlərinə vaxtı-vaxtında və keyfiyyətlə peşəkar xidmətlər göstərmək məqsədilə yaradılır. Eyni zamanda, bu istehlak kooperativlərinin kooperasiya sisteminə daxil olmayan hüquqi və fiziki şəxslərə müvafiq xidmətlərin göstərilməsi hüququ verilə bilər. Xidmətlərin göstərilməsinin belə ikili xüsusiyyəti, ilk növbədə, müvafiq xidmət kooperativi və onun üzvlərinin azad seçim, səmərəlilik, iqtisadi müstəqillik və s. prinsiplərindən irəli gəlir. İkincisi, kooperativ sisteminin üzvlərinə müvafiq xidmətlər güzəştli tariflər (qiymətlər) ilə, kooperativ üzvü hesab edilməyən hüquqi və fiziki şəxslərə isə ümumi bazar (razılaşdırılmış) tarifləri (qiymətləri) ilə göstərilə bilər.

## 6. İstehsal kooperativlərinin funksiya və vəzifələri

Kənd təsərrüfatı istehsal kooperativlərinin əsas vəzifələri: kooperativin sərəncamında olan ehtiyatlardan - kənd təsərrüfatına yararlı torpaq sahələri, əmək ehtiyatları və kapitaldan (əmlak və istehsal vasitələrindən, pul vəsaitindən) səmərəli istifadəni təmin etmək; təbii-iqlim şəraitinə uyğun gələn kənd təsərrüfatı məhsullarının istehsalını təşkil etmək; istehlak bazarının - emal müəssisələrinin vaxtı-vaxtında, kifayət qədər və keyfiyyətli xammala, ticarət şəbəkələrinin və əhalinin təzə kənd təsərrüfatı-ərzaq məsullarına, kənd təsərrüfatının toxum və əkin materiallarına olan tələbatını ödəmək; ölkə əhalisinin ərzaq təhlükəsizliyi və yoxsulluğun azaldılması, işsizliyin

aradan qaldırılması və məşğulluğunun səmərəliliyinin təmin olunması, regionların sosial-iqtisadi inkişafının təmin edilməsi kimi dövlət proqramlarının yerinə yetirilməsində fəal iştirak etməklə səciyyələndirilir.

## I. İstehsal kooperativlərinin nümunəvi sxemi




Yuxarıda verilmiş I sxemdən göründüyü kimi, hər bir istehsal kooperativi öz fəaliyyətini iki istiqamətdə həyata keçirir: əsas fəaliyyət sahəsi müəyyən növ kənd təsərrüfatı məhsulları istehsalının təşkili və həyata keçirilməsi ilə səciyyələndirilir, təbii-iqlim şəraitindən asılı olaraq; kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar olan zəruri ilkin (texnoloji) xidmətlərin göstərilməsini həyata keçirirlər.

Kənd təsərrüfatı istehsal kooperativlərində əməyin təşkilinin ikinci istiqaməti kənd təsərrüfatı məhsullarının istehsalı ilə bilavasitə əlaqədar olan zəruri xidmət sahələrinin yaradılması ilə səciyyələndirilir. Buraya daxil edilir: aqrotexniki, zoobaytar və zootexniki, meliorasiya və irriqasiya, mexanikləşdirmə və avtomatlaşdırma, torpağın tərkibinin yaxşılaşdırılması və yer quruluşu, uçot və hesabat, hüquqi və s. xidmətlər. Belə xidmətlərin əsasən kooperativ üzvlərinin əməyi vasitəsi ilə və yaxud muzdlu işçilər işə götürmək hesabına göstərilməsinə üstünlük verilir. Bununla yanaşı, göstərilən xidmətlərin ixtisaslaşmış aqrar sənaye kompleksi sahələri üzrə istehlak-xidməti

kooperativləri, onların filial və ya nümayəndələri vasitəsi ilə kontrakt əsasında yerinə yetirilməsi istisna edilmir, əgər zəruri tələbat yaranarsa.

Beləliklə, kənd təsərrüfatı istehsal kooperativlərinin əsas vəzifəsi yalnız istehsal münasibətlərinin təşkili və həyata keçirilməsi ilə məhdudlaşdırılır. Onlar istehsal etdikləri məhsulların bölgüsü, mübadiləsi, satışı və istehsal vasitələrinin əldə edilməsi ilə əlaqəli vəzifələrin yerinə yetirilməsindən azad edilirlər. Kooperativləşmədən əvvəl yerinə yetirdikləri, əziyyət çəkdikləri bu vəzifələr istehlak kooperativlərinin xidmətlərindən istifadə etmək yolu ilə əvəzləndirilir. İqtisadi metodlar üzrə qarşılıqlı əlaqələr yaradılır, razılaşmalar əldə edilir (kontrakt müqavilələri bağlanır), hər iki tərəf öhdəliklər götürür, onların vaxtında və keyfiyyətli yerinə yetirilməsi üçün məsuliyyət daşıyırlar.

Kooperativləşdirmədən sonra kənd təsərrüfatı istehsal kooperativlərində keyfiyyətcə yeni funksiyalar yaradılır. Əvvəla, kooperativ üzvləri həm əmlak payına görə və həm də sərf etdikləri əməyə görə mənfəətdən pay alırlar. İkincisi, kooperativ üzvləri, bəzi iqtisadçı-alim və mütəxəssislərin düşündüyü kimi, əmək haqqı almırlar. Kooperativlərdə yalnız kooperativ üzvü olmayan və muzdlu əməyə cəlb edilən işçilər əmək haqqı alırlar.

Üçüncüsü, dünya təcrübəsinə dair faktlar deməyə əsas verir ki, kooperasiya hərəkatı yüksək səviyyədə təşəkkül tapmış ölkələrdə uçot və hesabat işlərinin də yüksək səviyyədə təşkilinə xüsusi diqqət yönəldilir, mükəmməl məlumatların mövcudluğu bu ölkələrdə kooperasiya sisteminin təşkili, idarə edilməsi və səmərəli fəaliyyət göstərməsinin əsas amillərindən hesab edilir. Odur ki, Azərbaycanda yaradılacaq kooperasiya sisteminin əsas, mühüm əhəmiyyətli vəzifələrinə mükəmməl uçot və hesabat sisteminin yaradılması da daxil edilir. Bu məqsədlə regional istehsal kooperativlərinin tərkibində xüsusi "uçot və hesabat" bölməsinin yaradılması əhəmiyyətli sayılır. İstehsal kooperativin əsas funksiyalarından biri yalnız kooperativ üzvləri və ümumiyyətlə kooperativ üzrə fəaliyyət nəticələrinin tam və dəqiq iqtisadi-statistik qiymətləndirilməsini aparmaqla məhdudlaşdırılmır, həm də ərazi üzrə kooperativə daxil olmayan hüquqi və fiziki şəxslərdən kənd təsərrüfatı məhsullarının istehsalı, onlardan istifadə edilməsi, habelə kənd təsərrüfatının təşkili və idarə edilməsi ilə əlaqəli olan digər məlumatların alınması funksiyası ilə silahlandırılırlar. Beləliklə, kənd təsərrüfatı istehsal kooperativləri coğrafi ərazilər üzrə cəmi, o cümlədən kooperativ sistemi üzrə, müvafiq iqtisadi-statistik göstəricilər üzrə, məlumatları icmal formada hazırlayıb, qanunvericiliyə uyğun olaraq, səlahiyyətli icra orqanlarına, kooperasiya birliklərinə və ixtisaslaşmış ittifaqlara, elmi tədqiqat təşkilatlarına göndərə və s. istifadəçilərin tələbatını ödəyə biləcəklər. Burada həm də icmal hesabat hazırlandığına görə, qanunvericiliyə uyğun olaraq, kommersiya sirrinin qorunmasına tam təminat yaranır.

Kənd təsərrüfatı istehsal kooperativi kənd yerlərinin iqtisadi və sosial inkişafının ən etibarlı vasitəçisi rolunu öynaya bilmək imkanlarına malik olur, üzvlərinin yaşadığı ərazilərin abadlaşdırılması, sosial infrastrukturlarının yaradılması, kommunal və yaşayış xidmətlərinin güzəştli şərtlərlə yerinə yetirilməsinə əlverişli şərait yaratmış olur.

Müşahidələr göstərir ki, kənd yerlərində kiçik sahibkarlıq subyektləri və habelə şəxsi yardımçı təsərrüfatların inkişafını stimullaşdırmaq və səmərəliliyini təmin etmək

vəzifələrinin yerinə yetirilməsi, onların məhsullarının regional və regionlararası bazarlarda hərəkət etməsi, habelə kənd təsərrüfatı istehsalçılarının maddi-texniki təminatı üzrə yaranan problemləri həll etmədən mümkün olmur. Buradan da kənd təsərrüfatı məhsullarının emalı, təchizat-satış və xidmət funksiyalarını yerinə yetirən kənd təsərrüfatı istehsal kooperativləri sisteminin yaradılması və inkişaf etdirilməsi zərurətə çevrilir.

Kənd təsərrüfatı istehsal kooperativləri sisteminin səmərəli fəaliyyətinin təmin edilməsinin iki yolu mövcuddur: istehsal kooperativlərinin yaradılması, istehlak (xidmət) kooperativlərinin təşkili. Onlar bir-birinə köməklik göstərirlər, əməyin elmi təşkilinə, funksiyaların bölgüsü və ixtisaslaşmaya, istehsal proseslərinin əlverişli və məqsədəuyğun inteqrasiyasına şərait yaradılır. Onların hər birinin həyata keçirilməsi üçün tələb olunur: "aşağıların" təşəbbüskarlığı, kənd bələdiyyə qurumlarının təşkilati səyləri, marağı və köməkliyi, kooperativlərin fəaliyyətinin maliyyə-kredit təminatı.

Sual oluna bilər ki, kənd təsərrüfatı əmtəə istehsalçılarını nə üçün kooperativləşdirmək tələb olunur? Kiçik həcmdə kənd təsərrüfatı məhsulları istehsal edən subyektlərin (kəndli təsərrüfatları, şəxsi yardımçı təsərrüfatlar) kooperativləşdirilməsini zəruriləşdirən əsas səbəblərə daxil edilir: iri təsərrüfat qurumlarının yaradılması; böyük həcmdə investisiya tələb edən yüksək fond və materiallarla yüklənməsi; təsərrüfatın səmərəli fəaliyyəti üçün zəruri pul vəsaitinin məhdudluğu və çatışmazlığı; kooperativləşmə hesabına istehsalın həcmini artırmaq və onun səmərəliliyinin yüksəldilməsi mümkünlüyü; istehsal ehtiyatlarından istifadə və kənd təsərrüfatı məhsullarının tədarükünün (yığılmasının) mövsümiliyi; bazar infrastrukturlarının inkişaf etdirilməməsi.

Beləliklə, kiçik həcmli kənd təsərrüfatı əmtəə istehsalçılarının kooperativləşdirilməsi onların əlverişsiz bazar konyukturası şəraitində möhkəm dayana bilmək üçün və kənd təsərrüfatı istehsalı üzrə iqtisadi səmərəliliyin yüksəldilməsi problemlərini həll etməyə əlverişli şərait yaradır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. "Azərbaycan 2020: gələcəyə baxiş" inkişaf konsepsiyası;
2. Sahibkarlıq fəaliyyəti (sənədlər toplusu), "Hüquq ədəbiyyatı" nəşriyyatı, Bakı, 2003-cü il;
3. Xacə Nəsirəddin Tusi, Əxlaqi-Nasiri, Bakı, "Elm", 1989-cu il, 256 s.;
4. Kənd təsərrüfatının rəqabət qabiliyyətinin təmin edilməsində kooperasiya münasibətlərinin rolunun artırılması, AzETKTİvəTİ-nin hesabatı, Bakı, 2014, 192 s.;
5. İsrafilov H. A., Qloballaşma şəraitində istehlak kooperasiyasının inkişaf problemləri və perspektivləri, iqtisad elmləri doktorluq dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı, 2014-cü il;
6. Zeynallı Əlisa, Azərbaycan kənd təsərrüftı coğrafiyasının müasir problemləri, monoqrafiya, Bakı, "Elm", 2005-ci il, 392 s.;
7. Чаянов А. В., Основные идеи и формы организации сельскохозяйственной кооперации, Москва, Наука, 1991 год, 456 с.;

8. Илимский-Кутузов Д. И., Очерки по теории кооперации, Москва, 1925 год, 136 с.;
9. Агеев А. М., Кооперация агробизнеса и хозяйства населения // Экономика сельского хозяйства Росии, 2006, №9;
10. Пажитнов К. А., История кооперативной мысли, Петроград, 1918 год;
11. Кулиев Т. А., Крестьянская потребительская кооперация: теория и основные направления, Баку, 2014 год;
12. Зейналова С. М., Немецкие колонии в Азербайджане (1819-1941 гг.) , Баку, Араз, 2002, 222 с.;
13. Wikipedia internet səhifəsinin materialları.

## Система кооперации отраслей аграрно-промышленного комплекса, его функции и принципы действия

Зейналлы Алиса Таваккуль оглы[2], д. ф. э.,
*АзНИИЭиОСХ, заведующий отделом;*
Т. К. Горчиева,
*ведущий научный сотрудник*

РЕЗЮМЕ

Кооперация - это добровольное объединение субъектов системы экономических отношений, имеющие единую цель по производству продуктов и оказанию услуг. Считается своеобразным методом научной организации труда юридических и физических лиц. Они выполняют особо значимые функции предпринимательства. Производственно-технологические отношения между ними строятся по вертикальной и горизонтальной форме интеграции, определенные в соответствии с контрактной договоренностью обязательств, выполняются с высоким чувством ответственности и за счет точного соблюдения условленных порядковых действий, наконец, достигается желаемая эффективной результативность. Основные приметы по которым кооперативы различаются от других форм предпринимательства: наличие совместной (общей) собственности; оценка деловых отношений примерно на уровне расходов, распределение поступивших сверх этих затрат всех доходов между членам кооператива в соответствии с пропорциями вложенных ими доли взносов и имущества; ограничение влияния членов кооператива, согласно принципа «каждый член имеет только один голос», не зависимо от объема вложенного капитала и имущества.

**Ключевые слова**: кооперация, интеграция, производственные кооперативы, потребительские кооперативы, систем кооперации, вертикальная кооперация, горизонтальная кооперация.

[2] E-mail:zeynal1950@mail.ru, Tel: (+99451) 593 30 25

# The cooperation system of branches of an agrarian-industrial complex, its functions and action principles

Ph.D.Zeynalli Alisa Tavakkul[3]
*AzSRIE&OA, head of department;*
T.K.Gorchieva,
*Leading researcher*

RESUME

Co-operation is a voluntary association of subjects of the economic relations system, having uniform purpose on production of products and rendering of services. It is considered an original method of the scientific organisation of works as legal and so physical persons. They carry out especially significant functions of business. Industrial-technological relations between them are under construction on the vertical and horizontal forms of integration defined according to the contract arrangement of obligations are carried out with high a sense of responsibility and at the expense of exact observance agreed an operations procedure and at last is reached desirable effective productivity. The basic signs on which co-operative societies differ from other forms of businessmen: presence of the joint (general) property; an estimation of business relations approximately at level of expenses, distribution of all incomes which have arrived over these expenses between members of co-operative society in conformity of a proportion enclosed by them of a share of payments and property; restriction influence of members of co-operative society agrees a principle «each member has only one voice», is not dependent on volume of the enclosed capital and property.

**Keywords**: cooperation, integration, production co-operatives, consumer co-operative societies, cooperation systems, vertical cooperation, horizontal cooperation.

[3] E-mail:zeynal1950@mail.ru, Tel: (+99451) 593 30 25